**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏRGİZ TACƏDDİN QIZI RƏHİMOVA**

# SERGEY BORODİN VƏ İSA HÜSEYNOVUN TARİXİ ROMANLARINDA OBRAZLARIN TİPOLOGİYASI

5718. 01 – Dünya ədəbiyyatı (Rus ədəbiyyatı)
5716. 01 – Azərbaycan ədəbiyyatı

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

**Dissertasiya Bakı Slavyan Universitetinin Rus ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** filologiya elmləri doktoru, professor
**Məmməd Qoca oğlu Qocayev**

**Rəsmi opponentlər:** filologiya elmləri doktoru, professor
**Flora Sultan qızı Naciyeva**

filologiya elmləri doktoru, professor
**Bədirxan Balaca oğlu Əhmədov**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası**

Müdafiə “_30__” __11__ 2016-cı il saat ___-da Bakı Slavyan Universitetinin nəzdində filologiya üzrə doktorluq və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsinin keçirən D.02.71 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, S.Rüstəm küçəsi, 25

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat “____” _____ 2016-cı il tarixində göndərilmişdir.

**D.02.71 Dissertasiya Şurasının elmi katibi**
filologiya üzrə fəlsəfə doktoru, dosent: **N.Muqimova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XIX-cu yüzilikdən başlayaraq Azərbaycanın Rusiya ilə eyni siyasi məkanda birgə yaşaması mədəni, kulturoloji, ədəbi kontekstə də öz təsirini göstərmiş, zəngin yaradıcılıq atmosferində hər iki xalqın ədəbiyyatında bədii əsərlər yaranmışdır. Sovet dövründə bəzi ideoloji və sosioloji meyillərə baxmayaraq, bədii düşüncə orbitində tarixdə qalacaq əsərlər də yazılmışdır. Xüsusilə, sovet dövrünün ilk əlli illik mərhələsində siyasi konyukturaya uymayan yazıçıların tez-tez keçmişə müraciət etmələri tarixi roman janrının inkişafını sürətləndirən amillərdən idi. Əslində, 1930-1960-cı illərdə tarixi mövzuya kütləvi axının səbəblərindən biri də yazıçının müasir həyat hadisələrindən daha çox tarixi hadisələrin təsviri kontekstində ideoloji meyillərdən uzaqlaşmaq istəyindən doğmuşdur. Buna baxmayaraq, ideoloji meyillər tarixi mövzulara da öz təsirini göstərmiş, tarixi hadisələrə və şəxsiyyətlərə münasibətdə əyintilərə yol verilmişdir. Bu əsərlərdə tarixi hadisələr və tarixi şəxsiyyətlər mövcud ideologiyanın ruporuna çevrilirdi.

Bu baxımdan, rus nəsrinin görkəmli nümayəndəsi Sergey Borodin (1902-1974) ilə Azərbaycan nasiri İsa Hüseynovun (1928-2014) yaradıcılığı arasında paralellər aparmaq mümkündür. Bu iki ədibin yaradıcılığında tarixi dövrün, hadisələrin və tarixi şəxsiyyətlərin bədii təcəssümü tarixə yazıçı münasibətini və təxəyyülünün miqyasını araşdırmaq üçün ən yaxşı vasitələrdən biri kimi diqqəti cəlb edir. S.Borodinin «Səmərqəndin ulduzları», İ.Hüseynovun «Məhşər» romanları tarixi və bədii təxəyyülün məhsulu kimi XX əsrdə tarixi janrın keçdiyi inkişaf yolu haqqında da müəyyən təsəvvür yaratmış olur. Hər iki romanda personajların təqdimi, dövrün təsviri, hadisə və şəxsiyyətlərə münasibət həmin dövr və şəxsiyyətlər haqqında müxtəlif, ziddiyyətli fikirləri, araşdırılmamış məsələləri aydınlaşdırmağa imkan yaradır. S.Borodinin «Səmərqəndin ulduzları» romanı 1962-ci ildə Azərbaycan dilində nəşr olunmuşdur. Romanda cərəyan edən hadisələrin bir qisminin Azərbaycanda baş verməsinə və əsərin bir neçə fəslinin birbaşa Şirvan, Qarabağ, Naxçıvan, eləcə də Cənubi Azərbaycanda gedən tarixi hadisələrə həsr olunmasına baxmayaraq, istər sovet, istərsə də müstəqillik dövrü ədəbiyyatşünaslığımızda bu romanın mövzu və problematikasına

toxunulmamışdır. Halbuki, S.Borodinin «Səmərqəndin ulduzları» romanında Azərbaycanın tarixi ilə bağlı bir sıra hadisələr təsvir olunur, müxtəlif tarixi şəxsiyyətlərin və hadisələrin bədii təsviri verilir.

İ.Hüseynovun «Məhşər» fəlsəfi-tarixi romanı isə xalqımızın keçmişinin müəyyən bir mərhələsini, onun psixologiyasını, eləcə də düşüncəsini öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. Yazıçıların tarixi mövzu ilə bağlı hadisələrin necə təsvir edilməsi və mövcud ideologiyadan kənarda ona münasibət bildirilməsi, S.Borodinlə İ.Hüseynovu birləşdirən amillərdəndir.

Bir-birindən iyirmi ilə yaxın zaman fərqi ilə yazılmış hər iki tarixi romanın ədəbiyyatşünaslığın problemləri baxımından araşdırılması mövzunu aktuallaşdıran əsas məsələlərdəndir. Ayrı-ayrılıqda, bu romanlar haqqında bəzi məqalə və tədqiqatlar yazılmışdısa da, seçilmiş problem tədqiq edilməmiş, mövzu, problematika və digər tipoloji problemlər baxımından araşdırma obyekti olmamışdır. Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də məhz bu romanların tipoloji cəhətdən müqayisəli tədqiq edilməsidir.

**Mövzunun işlənilmə dərəcəsi**. Seçilmiş dissertasiya mövzusu indiyə qədər bütövlükdə Azərbaycan filologiya elmində xüsusi tədqiqat mövzusu olmamışdır. Bu günə qədər S.Borodinin «Səmərqəndin ulduzları» və İ.Hüseynovun «Məhşər» romanları tarixi şəxsiyyətlərin, hadisələrin, obrazların tipologiyası baxımından ayrılıqda öyrənilməmiş və bu mövzunu əhatə edən vahid və əhatəli tədqiqat işi yoxdur. Dövrün ədəbi tənqidi hər iki nasirin yaradıcılığı haqqında yalnız müəyyən məqalələr dərc etmişdir. Bu məqalələrdə isə sosialist realizmi tələbləri çərçivəsində yazıldığından və sovet ideologiyasını təlqin etdiyindən hər zaman obyektivlik gözlənilməmişdir. Belə ki, rus və özbək ədəbiyyatşünaslarından Q.Vladimirov, S.Lixodziyevski, Y.Avaliani, L.Royzenzon, L.Subotski, E.Starikova, A.Talanov, İ.Sultanov, L.Stroyeva və başqaları S.Borodinin yaradıcılığı ilə bağlı müxtəlif məqalələr

yazmışlar[1]. Ədibin «Misirli», «Sonuncu Buxara», «Dmitri Donskoy» kimi tarixi əsərlərinin dərcindən sonra, ədəbi tənqid onun sovet tarixi romanistikasındakı rolunu qiymətləndirməyə çalışmışdır. Ötən əsrin 50-ci illərindən S.Borodin yaradıcılığı rus və özbək ədəbiyyatşünaslığında tədqiq olunmağa başlayır[2]. Ədəbiyyatşünas Q.Vladimirov yazıçının yaradıcılığını ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən ilk araşdıranlardan biri olur. Onun yazıçının yaradıcılığı ilə bağlı araşdırmaları müxtəlif elmi məcmuələrdə nəşr edilir[3]. Q.Vladimirovun «Həqiqətin poeziyası» (Daşkənd, 1958) monoqrafiyası isə bütünlüklə yazıçının yaradıcılığına və onun tarixi roman janrındakı xidmətlərinə həsr olunan ilk monoqrafik tədqiqat əsəridir. 60-cı illərdə də S.Borodinin yaradıcılığı haqqında tədqiqat əsərləri yazılır. Daşkənd Dövlət Universitetinin əməkdaşı R.Sabirova «Tarixi roman ustası Sergey Borodinin sənətkarlığı» («Səmərqəndin ulduzları» romanının materialları əsasında) mövzusunda namizədlik dissertasiyası müdafiə edir. 70-ci illərdə də yazıçının yaradıcılığı ilə bağlı tədqiqatlar davam etmişdir. B.Akimovun «Sergey

[1] Владимиров Г. Мастерство художника. (Об исторический прозе С.Бородина) // Звезда Востока, № 3, 1959; Владимиров Г. Поэзия правды. Т., Гослитиздат, 1959, с.122; Гроссман Б. Книги Амира Саргиджана // Молодая гвардия. 1933, №9, с. 151-156; Мустаганова Б. Караваева А. Золотой клюв // Новый мир, 1928, №2, с. 98-101; Никитин Н. Каменный шит // Литературное обозрение, 1940, № 10, с. 78-81.

[2] Авалиани Ю., Ройзензон Л. Заметки о языке и стиле исторических романов С.Бородина // Звезда Востока, №11, 1965; Акимов Б. Творчество Сергея Бородина. Ташкент. Изд. литература и искусства им. Гафура Гулама, 1972, с.130; Гринберг И. Отражение в художественных произведениях С.П.Бородина приемов народного творчества // Вопросы литературоведения и языкознания, книга 4, АН УзССР, Институт языка и литературы им.А.С.Пушкина, Т., 1962; Муминов Ибрагим. Роль и место Амира Тимура в истории Средней Азии. Ташкент, изд-во «Фан» УзСССР, 1968, с. 40, 25; Сабирова Р. О мастерстве Сергея Бородина – исторического романиста (на материале романа «Звезды над Самаркандом»). Автореф. дис. … канд.филолог.наук. Ташкент, 1966, 24 с.

[3] Владимиров Г. Критико-библиографический очерк. Собрание сочинений С.П.Бородина в 5 томах. Том I. ГИХЛ УзССР. Ташкент, 1958, с.24; Владимиров Г. Поэзия правды. Т., Гослитиздат, 1959, 122 с.; Владимиров Г. Знамя дружбы. Статьи о литературе. Т., 1964, 126 с.

Borodinin yaradıcılığı» monoqrafiyası nəşr edilmişdir (1972)[4]. Y.Andreyevin «Rus sovet tarixi romanı», S.Petrovun «Rus sovet tarixi romanı» və s. tarixi romanın inkişaf yoluna həsr olunmuş monoqrafiyalarında[5] S.Borodin yaradıcılığına da müraciət edilmiş, «Sonuncu Buxara», «Misirli», «Topal Teymur», «Yürüş tonqalları», «İldırım Bəyazid» kimi əsərləri sovet romanları kontekstində bu və ya digər şəkildə tədqiq edilmişdir. Azərbaycan ədəbiyyatşünaslığında isə S.Borodin yaradıcılığı nəinki araşdırılmamış, hətta haqqında bir məqalə belə dərc edilməmişdir. Yazıçının «Səmərqəndin ulduzları» trilogiyasının böyük bir hissəsinin Azərbaycan həyatına, tarixinin müxtəlif səhifələrinə həsr olunmasına və romanın Bakıda iki cildinin nəşrinə baxmayaraq, haqqında bir resenziyanın belə çıxmaması təəccüblü olduğu kimi, həm də təəssüfedicidir. Halbuki, zamanında bu əsərə münasibət bildirilməli və buradakı tarixi hadisələrin təhlilə cəlb olunması Azərbaycan ədəbiyyatşünaslığının vəzifələrindən biri olmalı idi.

1960-1980-ci illər Azərbaycan ədəbiyyatına həsr olunan icmal məqalələrdə İ.Hüseynovun əsərləri geniş təhlilə cəlb olunmuşdur. Tənqidçi və ədəbiyyatşünaslardan Akif Hüseynov, Elçin, Anar, Yaşar Qarayev, Pənah Xəlilov, Tofiq Hüseynov, Cəlal Abdullayev, Vaqif Yusifli və başqalarının məqalə və tədqiqatlarında yazıçının əsərlərinin bədii-estetik keyfiyyəti və müxtəlif problemlər baxımından qiymətləndirilməsi başlıca yer tutur[6]. Yazıçının qızı Sevinc Hüseynovanın «İsa Hüseynovun hekayə və povestləri» mövzusunda yazdığı tədqiqat işi

---

4 Акимов Б. Творчество Сергея Бородина. Ташкент, изд. литература и искусства им. Гафура Гулама, 1972, с. 130

5 Андреев Ю.А. Русский советский исторический роман. М., Издательство Академии Наук СССР, 1962; Злобин С.О. О моей работе над историческим романом // Советская литература и вопросы мастерства. Москва, 1957, 256 с.; Изотов Т. Из истории критики советсткого исторического романа (20-30-е годы). Оренбург, 1967, 40 с.; Петров С.М. Проблемы реализма в художественной литературе. М., 1962, 410 с.; Петров С.М. Русский советский исторический роман. М., Современник, 1980.

6 Anar. Nəsrin fəzası (I məqalə) //Azərbaycan, 1984, №7. s. 164-181; Anar. Nəsrin fəzası (II məqalə) // Azərbaycan, 1984, №8, s.146-162; Axundov Y. Tarix və roman. Bakı, Yazıçı, 1988; Elçin. Ədəbiyyatda tarix və müasirlik problemi (filolog.elm. dokt. ... elmi məruzə). Bakı, 1997; Əlimirzəyev X. «Məhşər» və tarixi roman məsələsi. Bədii həqiqət uğrunda. Bakı. Yazıçı. 1984. s.153-163; Hüseynov A. Tarixi düşüncə vüsəti (1980-ci ilin nəsri). Sənət meyarı. Bakı. Yazıçı. 1986. s.147-260.

onun yaradıcılığına həsr olunmuş ilk dissertasiyalardandır[7]. Lalə Həsənzadənin «50-60-cı illər Azərbaycan nəsrinin poetikası (İsa Hüseynovun yaradıcılığı əsasında)» mövzusundakı dissertasiyasında isə yazıçının göstərilən dövrdəki yaradıcılığı tədqiqat obyekti olmuşdur[8].

Yazıldığı dövrdə ədəbi tənqidin roman haqqında bəzi mülahizələrinin yer almasına baxmayaraq, sonrakı ədəbiyyatşünaslıq, demək olar ki, «Məhşər» əsərini fundamental tədqiqata cəlb etməmişdir. N.Qəhrəmanovun «Tarixin fəlsəfəsinə doğru», X.Əlimirzəyevin «Məhşər» və tarixi roman məsələsi»[9] və s. bu kimi epizodik məqalələri nəzərə almasaq, romanın bədii-estetik, tarixi, ictimai əhəmiyyətini üzə çıxara bilən tədqiqatların azlığını aydın şəkildə görmüş olarıq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini S.Borodinin «Səmərqəndin ulduzları» və İ.Hüseynovun «Məhşər» tarixi romanları təşkil edir. Eyni zamanda tarixi roman janrının sovet ədəbiyyatında keçdiyi inkişaf yolu, qarşıya çıxan problemlər də tədqiqat işinin obyektinə daxildir. Tarixi və bədii təxəyyülün məhsulu olan qəhrəmanların müqayisəsi, əlaqəsi, Teymur, Nəimi, Nəsimi, Miranşah, Şirvanşah və başqa obrazların yaradılması, dövrün sosial-tarixi icmalının təsviri prinsipləri tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi XX-ci əsr rus ədəbiyyatının görkəmli nümayəndəsi S.Borodinin «Səmərqəndin ulduzları» və tanınmış Azərbaycan nasiri İ.Hüseynovun «Məhşər» tarixi romanlarında obrazların tipoloji xüsusiyyətlərini, xarakterlərini və özünəməxsusluğunu araşdırmaqdır. Bu məqsəddən irəli gələn **vəzifələr** aşağıdakılardan ibarətdir:

-sovet tarixi romanının inkişaf yolunu sistemli şəkildə öyrənərək rus və Azərbaycan tarixi romanı haqqında müəyyən qənaətlərə gəlmək;

-tarixi romanlarda ədəbi konfliktin tipologiyasını müəyyənləşdirmək;

-hər iki romanda tarixi dövrün bədii inikası problemini müqayisəli şəkildə araşdırmaq;

---

[7] Hüseynova S. İsa Hüseynovun hekayə və povestləri (Filoloq.elml.namiz. ... dis.). Bakı, 2000.

[8] Həsənzadə L. 50-60-cı illər Azərbaycan nəsrinin poetikası (İsa Hüseynovun yaradıcılığı əsasında). Fil.ü.f.d. ... dissert.avtoref. Bakı, 2007, 18 s.

[9] Qəhrəmanov N. Tarixin fəlsəfəsinə doğru // Ədəbiyyat və incəsənət, 1982, 12 fevral; Əlimirzəyev X. «Məhşər» və tarixi roman məsələsi. Bədii həqiqət uğrunda. Bakı, Yazıçı, 1984, s.153-163 və s.

-tarixi gerçəklik və bədii təxəyyülün təsviri probleminə aydınlıq gətirmək;

-tarixi mövzu, dövr və şəxsiyyətlərə münasibətdə ortaq dəyərləri üzə çıxarmaq;

-Teymur, Nəimi, Nəsimi, Şirvanşah İbrahim, Miranşah və başqa tarixi şəxsiyyətlərin xarakterlərini təhlil etmək;

-tarixi şəxsiyyətlərin bədii təcəssümünün tipoloji prinsiplərini araşdırmaq;

-hər iki yazıçının romanlarında tarixə və tarixi şəxsiyyətlərə baxışda müəllif mövqeyinin özünəməxsusluğunu müəyyən etmək və s.

**Dissertasiyanın elmi yeniliyi.** Məlumdur ki, S.Borodin və İ.Hüseynovun yaradıcılığı ayrı-ayrılıqda müxtəlif problemlər baxımından müəyyən qədər tədqiqata cəlb olunmuşdur. Lakin, hər iki yazıçının yaradıcılığında mühüm yer tutan tarixi mövzu və tarixi şəxsiyyət məsələsi ayrıca tədqiqat obyekti olmamışdır. Bununla yanaşı, S.Borodinin «Səmərqəndin ulduzları» və İ.Hüseynovun «Məhşər» romanları müqayisəli şəkildə öyrənilməmişdir. İlk dəfə olaraq hər iki yazıçının göstərilən əsərlərindəki obrazlar müqayisəli şəkildə araşdırılır, onların oxşar və fərqli cəhətləri müəyyənləşdirilir.

**Tədqiqatın metodları.** Dissertasiyada Azərbaycan və rus ədəbi, elmi irsinin öyrənilməsində tarixilik prinsipinə əsaslanaraq müqayisəli təhlil metoduna üstünlük verilmişdir. Tədqiqatda çağdaş elmi-nəzəri irsin təcrübəsinə istinad edilmiş, qarşıya qoyulan problemin xarakterinə uyğun olaraq tarixilik metod və prinsipi əsas götürülmüşdür. Eyni zamanda elmi işin yazılmasında ədəbi, tarixi, elmi-nəzəri materiallardan istifadə olunmuş, analoji tədqiqatların təcrübə və elmi nəticələrinə istinad edilmişdir.

**Tədqiqat işinin nəzəri əhəmiyyəti.** Tədqiqat işi S.Borodin və İ.Hüseynovun yaradıcılığına həsr olunmuş tədqiqat işlərini tamamlayır və genişləndirir. Dissertasiya işində əldə olunmuş nəticələr rus və Azərbaycan ədəbiyyatında tarixi roman janrı çərçivəsində obrazların tipoloji baxımdan araşdırılmasını daha da təkmilləşdirir.

**Tədqiqat işinin praktik əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqatın əsas müddəaları və nəticələri rus və Azərbaycan yazıçılarının əsərlərinin öyrənilməsində, filologiya və tərcümə fakültələrinin mühazirə kurslarında, müqayisəli ədəbiyyatşünaslıq üzrə xüsusi kurslarda, eləcə də XX-XXI əsr ədəbiyyatının tədrisi üçün dərslik və dərs vəsaitləri hazırlanmasında istifadə edilə bilər.

**Müdafiəyə çıxarılan müddəalar:**

1. S.Borodinin «Səmərqəndin ulduzları» və İ.Hüseynovun «Məhşər» romanları hər iki yazıçının yaradıcılığında mühüm yer tutur. Bu romanlarda tarixi hadisə və şəxsiyyətlərin tipoloji xüsusiyyətləri onları müqayisəli şəkildə öyrənməyə imkan verir.

2. Hər iki romanda tarixi şəxsiyyət və hadisələrə münasibətdə müəllif mövqeyinin özünəməxsusluğu ortaya çıxır.

3. Yazıçıların yazıb yaratdığı ədəbi proses və tarixi romanın inkişaf yolu öyrənilmişdir.

4. Tarixi şəxsiyyət və bədii gerçəklik probleminə, eləcə də tarixə yazıçı münasibətinə aydınlıq gətirilmişdir.

5. Teymurləng tarixi şəxsiyyət və bədii obraz kimi müqayisəli şəkildə araşdırılmışdır.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya Bakı Slavyan Universitetinin Rus ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları ilə bağlı müxtəlif Respublika və Beynəlxalq elmi konfranslarda məruzələr edilmiş, bilavasitə tədqiqat mövzusu ilə bağlı Azərbaycan Respublikası və Rusiya Federasiyasının ədəbi jurnallarında 13 məqalə çap etdirilrmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, hər biri üç yarımfəsilə bölünməklə iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«S.Borodinin «Səmərqəndin ulduzları və İ.Hüseynovun «Məhşər» romanlarında tarixi şəxsiyyətlərin və tarixi dövrün bədii əksi»** fəslinin **«Rus və Azərbaycan ədəbiyyatlarında tarixi romanın təşəkkülü və tipologiyası»** adlı birinci yarımfəslində hər iki yazıçının yaşayıb yaratdığı ədəbi mühitin tarixi romana baxışı müxtəlifliyi və müəyyən inkişaf yolu keçməsinə nəzər yetirilir. Qeyd olunur ki, S.Borodinin rus ədəbiyyatı, İ.Hüseynovun isə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olması və hər iki müəllifin sovet ədəbiyyatı tarixi kontekstində fəaliyyət göstərməsi onların yaradıcılığını həm sovet ədəbiyyatı, həm də milli ədəbiyyat kontekstində araşdırmağa imkan verir.

Aydın məsələdir ki, yeni cəmiyyətdə tarixi romana münasibət

yazıçıların mövzuya yanaşmasına təsir etdiyi kimi, ədəbiyyatşünasların da tarixi əsərləri qiymətləndirməsində bəzən həlledici rol oynamışdır. Yəni uzun müddət sovet ədəbiyyatşünaslığında klassik tarixi əsərlərlə sosrealizm tarixi romanlarına eyni rakursdan yanaşılmışdır. Məsələn, klassik tarixi əsərlərdə tarixi gerçəkliklə bədii təxəyyül mühüm rol oynayırdısa, Sovet dövründə hadisə və şəxsiyyətlərə sinfi və ideoloji mövqedən yanaşılırdı.

Lakin sosrealizm dövrünün əvvəlində yazılan tarixi əsərlərlə bu dövrün tənəzzülə doğru getdiyi zamanın tarixi əsərləri arasında xeyli dərəcədə fərqlər vardır ki, bu da sosrealizmin çərçivəsi daxilində tarixi romanın inkişaf yoluna və hər iki ədibin yaradıcılığında tarixi romanın yaranma problemlərinə nəzər salmağı zəruri edir. Tarixi romanın inkişaf yolunu iki kontekstdə araşdırmaq lazım gəlir: a) rus və ümumittifaq ədəbiyyatı kontekstində; b) Azərbaycan ədəbiyyatı kontekstində.

Bədii əsərlərdə tarixi mövzuya müraciət, yaxud tarixi əsərlərin yaranması mərhələsi ötən əsrin 20-ci illərindən başlamışdır. Bu zaman oçerk janrına daha çox üstünlük verilirdi; ədəbiyyatın çevik janrlarından hesab olunan oçerklərdə tarixi mövzular geniş yer tuturdu. Lakin 20-ci illərin ortalarından başlayaraq, tarixi mövzuda olan əsərlərin yazılması intensivləşdiyi kimi, sənətkarlıq baxımından da fərqlilik nəzərə çarpır. Doğrudur, bu mərhələdə tarixi mövzuda yazılan əsərlər də ideoloji təmayüllərdən və sxematizmdən azad deyildir. Lakin, həm tarixi hadisəyə münasibətdə, həm də hadisə və obrazların təsvirində sənətkarlıq, obraza yanaşmada peşəkarlıq müşahidə edilirdi. Bunun da nəticəsində A.Akuşkinin «Dekabristlər», V.Zalejskinin «İnqilab yollarında», «On iki həbsdə səkkiz qaçış», Y.Tınyanovun «Kyuxlya», M.Mariçin «Şimal şəfəqləri», Al.Altayevin «Stenkina Volnisa», A.Çapıginin «Stepan Razin», İ.Şişkeviçin «İvan Bolotnikov», A.Karavayevin «Qızıl dimdik», O.Forşun «Daşdan geyinmişlər» və b. əsərləri tarixi mövzunun təşəkkülündə müəyyən rol oynamışdır.

Bu baxımdan, rus sərkərdəsi Suvorov haqqında yazılmış tarixi romanlarda şəxsiyyətin tarixdəki rolunun qiymətləndirilməsinin şahidi oluruq. L.Rakovskinin «Generalissimus Suvorov» (1940) romanında böyük rus sərkərdəsi Suvorov, eləcə də, rus xalqının qəhrəmanlıq səhifələri təsvir obyekti olmuşdur.

Azərbaycan bədii nəsrində tarixi romanın təşəkkül prosesi XX əsrin 30-cu illərinə təsadüf etməsi tam zamanında sayıla bilər. Bu vaxta qədər, həm bədii nəsr özü müəyyən bir inkişaf yolu keçərək təcrübə qazanmışdı,

həm də qısa bir zaman kəsimində Azərbaycan xalqı nəinki milli kimliyini müəyyənləşdirmiş, eləcə də siyasi müstəqilliyini qazanaraq tarixini, etnoqrafiyasını, siyasi, ictimai, maddi və mənəvi əlaqələrini, iqtisadiyyatını, dövlət quruluşunu, dilini bir müddət müstəqil olaraq yürüdə bilmişdi. Bədii nəsr sovet hakimiyyəti dövründə fərqli bir siyasi idarəetmə formasına daxil olsa da, yeni bir inkişaf yoluna qədəm qoymuşdur. Tənqidçi M.Hüseyn 40-cı illərdə milli bədii nəsrdə tarixə meylin bu dərəcədə aktual olduğunu nəzərdə tutaraq, «Yazıçı və tarix» məqaləsində yazırdı: «Bizdə tarixi mövzulara böyük bir meyl oyanmışdır. Bu, son dərəcə qanuni bir hadisədir»[10].

Y.V.Çəmənzəminlinin «Qan içində» romanı tarixi roman janrının mövcud tələblərinə tam cavab verən əsərlərdəndir. Çünki, bildiyimiz kimi, tarixi mövzuya müraciət edən yazıçı tarixi romanda faktları, sənədləri təhrif etmədən hadisələri dürüst və real şəkildə təsvir edir, idealizəyə yol vermir, hadisə və xarakterləri bütün ciddiyyəti ilə göstərməyə çalışır. Belə ki, məhz bu romanda Azərbaycan tarixinin son dərəcə maraqlı, ziddiyyətli hadisələrlə dolu «xanlıqlar dövrü» təsvir edilmişdir. Yazıçı tarixi obrazları (İbrahim xan, Molla Pənah Vaqif, Ağa Məhəmməd şah Qacar və b.) qüvvətli və zəif cəhətləri ilə təsvir etmişdir. Oxucu, yazıçı realizminin gücü sayəsində İbrahim xanın, Ağa Məhəmməd şah Qacarın, Vaqifin, Mədinənin həyatı, dünyagörüşü, düşüncəsi və bir çox insani xüsusiyyətlərini də tanımış olur.

Tarixi roman janrı 40-50-ci illərdə də müəyyən inkişaf yolu keçmişdir. Bu dövrə aid tarixi romanının ən parlaq nümunələrindən M.S.Ordubadinin «Qılınc və qələm», Anatoli Zöhrabbəyovun «Odlu diyar», Pənah Makulunun «Səttar xan» romanlarını misal gətirmək olar. Qeyd olunan romanlardan ikisində Nizami dövrü və şəxsiyyətindən bəhs olunur.

Beləliklə, istər rus, istərsə də Azərbaycan bədii nəsrində tarixi roman həyata gec vəsiqə almasına baxmayaraq, özünəməxsus inkişaf yolu keçmiş, tarixi hadisələrə obyektiv bədii baxış formalaşdırmağa nail olmuşdur. Lakin onu da qeyd etmək lazımdır ki, tarixi roman janrının inkişaf yolu özünəməxsusluğu ilə səciyyələnir. Ona görə də bu yolun 30-cu illəri ilə 60-70-ci illəri arasında xeyli dərəcədə fərqlərin olduğunu görməmək mümkün deyil. Bu fərqlər yalnız mövzu və problematikada deyil, həm də tarixi hadisələrə yanaşmada və təsviretmə üsullarında,

---

[10] Hüseyn M. Yazıçı və tarix // Seçilmiş əsərləri. 10 cilddə, 9 cild. Bakı. Yazıçı. 1979.

dilində və üslubunda açıq şəkildə özünü göstərir.

Fəslin **«S.Borodin və İ.Hüseynov yaradıcılığında tarixi gerçəklik və tarixə yazıçı münasibəti»** adlı ikinci yarımfəslində S.Borodin və İ.Hüseynovun əsərlərindəki gerçəkliyin tipologiyası müəyyən edilir, tarixə yazıçı münasibəti aşkarlanır, tarix və müasirlik mövqeyindən də bu yazıçıları birləşdirən ortaq cəhətlər üzə çıxarılır. Qeyd olunur ki, Azərbaycan tarixinin müəyyən bir zaman kəsiminin bədii inikası baxımından S.Borodinin «Səmərqəndin ulduzları» və İ.Hüseynovun «Məhşər» romanları arasında bir paralellik vardır. Bu əsərlərin ədəbi prosesdəki yerini və mövqeyini aydınlaşdırmaq, eləcə də tarixi hadisələrə münasibətini araşdırmaq üçün ayrı-ayrılıqda hər iki yazıçının yaradıcılığına kompleks şəkildə nəzər salmaq lazımdır.

S.Borodinin «Dastanlar ölkəsi», «Qazmaçılar», «Cənnət dəvəsi» və başqa oçerkləri geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanır. Onun əsərləri dili, sətiraltı mənası və məzmunu ilə yadda qalmaqla yanaşı, müəllifinə yeni ədəbi üstünlüklər gətirir. Yazıçının bu əsərlərini ədəbi inkişaf yolunda uğurlu addım hesab etmək olar. Bunun ardınca yazıçının Bruno Yasenskinin ön sözü ilə novellalardan ibarət «Sonuncu Buxara» əsəri çap olunur (1932). Əsər S.Borodin imzası ilə deyil, «Əmir Sarqican» adı ilə çap olunur. Qeyd etmək lazımdır ki, yazıçı yaradıcılığının ilk illərində əsərlərini «Sergey Borodin» və «Əmir Sarqican» adı ilə də dərc etdirirdi. Onun «Misirli» (1932), «Vətən müharibəsi XVI əsrdə» (1941), Dmitri Donskoy» (1942) əsərləri «Sergey Borodin» adı ilə dərc edilmişdir. Maraqlıdır ki, yazıçı eyni əsərlərini başqa jurnal və qəzetlərdə həm də «A.Sarqican», «Amir Sarqican» adı altında da çap etdirmişdir. Onun müxtəlif vaxtlarda «Dəmir fil», «Əzizə», «Sonuncu Buxara», «Valeri Bryusov», «Kolxozlar Amerikaya üzür», «Misirli» və s. oçerk və əsərləri «A.Sarqican» adı ilə çap edilmişdir. 1940-cı illərdən başlayaraq dərc etdirdiyi kitablarda isə yazıçı «Sergey Borodin» imzasından istifadə etmişdir.

S.Borodinin «Sonuncu Buxara» əsəri ədəbi tənqid tərəfindən birmənalı qarşılanmır, yazılmış məqalələrdə bir neçə yerdə anlaşılmazlıqların olduğu qeyd edilir. B.Yasenskidən sonra B.Qrossman da əsər haqqında məqalə dərc etdirir[11]. Ən çox mübahisəyə səbəb olan isə yazıçının köhnəliklə yeniliyin mübarizəsində tutduğu mövqedən ibarət olur.

---

[11] Гроссман Б. Книги Амира Саргиджана // Молодая гвардия. 1933. №9. с. 151-156.

Əlbəttə, 30-cu illər ideologiyasının təsiri altında yazılmış bu əsərlərin tənqidi cəhətləri də qaçılmaz idi, çünki obrazların hərəkət istiqamətinin sxematikliyi, ideoloji basqılar müəllifə bu çərçivədən çıxmağa imkan vermirdi. Müəllifin gənc olması da öz sözünü deyirdi: hələ yazıçının bədii nəsr düşüncəsində hadisə və obrazlara münasibətdə dağınıqlıq hiss olunurdu. Buna görə də, «Sonuncu Buxara» əsəri S.Borodinin yaradıcılığında bir keçid mərhələsi təşkil edir. Bu əsəri ilə müəllif mürəkkəb portretlər və peyzaj ustası kimi özünü göstərdi. Hər iki keyfiyyət sonralar müəllifə «Səmərqəndin ulduzları» romanının yazılmasında yardımçı olmuşdur. Sonuncu romanında işlətdiyi peyzajlar müəllifə hadisələri detalları ilə təsvir etməkdə geniş imkanlar yaradırdı.

S.Borodinin «Səmərqəndin ulduzları» ümumi adı ilə dərc olunan trilogiyası xüsusilə yadda qalmışdır. Romanın birinci cildi «Topal Teymur» adlanır və 1965-ci ildə Daşkənddə nəşr olunmuşdur. Elə həmin il «Yürüş tonqalları» adlı ikinci cild də işıq üzü görür. Üç il sonra isə, «Sovetskiy pisatel» nəşriyyatı hər iki cildi bir kitab şəklində Moskvada dərc etmişdir. 1968-1969-cu illərdə epopeyanın üçüncü cildi «Zvezda Vostoka» jurnalında «İldırım Bəyazid» adı ilə dərc edildi. Qeyd etmək istərdik ki, bu əsər yazıçının sonuncu romanı olmuşdur və bundan sonra o, irihəcmli roman yazmamışdır. Romanın nəşr edilməsindən sonra ədibin yaradıcılığına maraq xeyli artdı. Tənqidçi Q.Vladimirov «Səmərqəndin ulduzları» romanının «Topal Teymur» və «Yürüş tonqalları» hissələrini dəyərləndirərkən yazıçının sənətkarlığının artdığını xüsusi qeyd edirdi. «Səmərqəndin ulduzları» romanının ilk iki kitabına («Topal Teymur» və «Yürüş tonqalları») görə yazıçıya 1968-ci ildə «Həmzə Həkimzadə Niyazi» adına mükafat verilmişdir.

«Səmərqəndin ulduzları» romanının «Topal Teymur» kitabı 21 fəsildən, iki hissədən ibarətdir; birinci hissə 1399-cu ildə Teymurləng və onun ətrafında baş verən hadisələrdən, ikinci hissə isə Teymurləngin Sultaniyyə həyatından bəhs edir. «Yürüş tonqalları» adlı ikinci kitab isə, iyirmi fəsildən ibarətdir. Bu hissədə verilən «Şirvan» (2 dəfə), «Marağa» fəsillərində isə Teymurun Azərbaycanda yeritdiyi siyasət, Miranşahın Şirvanşah İbrahimlə münasibətləri, eləcə də Nəimi və Nəsiminin Teymurləng istilasına qarşı mübarizəsi təsvir edilir. Romanın «Şirvan» fəslində Nəimi və Nəsiminin dialoqunun yer alması İ.Hüseynovun «Məhşər» əsəri ilə tarixi paralellər aparmağa imkan yaradır.

S.Borodinin 1971-ci ildə bitirdiyi «İldırım Bəyazid» adlı üçüncü hissəsi isə Azərbaycan dilinə tərcümə edilməmişdir. Tədqiqat zamanı bu

məsələnin səbəblərini araşdırsaq da, müfəssəl cavab tapmağa nail ola bilmədik. Hər halda, fikrimizcə, iki kitabdan sonra üçüncü kitabın Azərbaycan dilinə tərcümə edilməməsinin ciddi səbəbləri olmalı idi. Qeyd etmək yerinə düşərdi ki, iki hissədən ibarət üçüncü kitabın üçüncü fəsli «Qarabağ» adlanır. Buradakı hadisələr 1401-ci ildən başlayır. Maraqlıdır ki, S.Borodin romanın bu hissəsini 1970-1971-ci illərdə İstanbulda yazmışdır. Görünür, yazıçı burada yazmaqla yanaşı, həm də bəzi mənbələrdən istifadə etməyi düşünürdü. Romanda İldırım Bəyazidlə bağlı bir çox tarixi mənbələrdən istifadə edilməsi də bunu deməyə əsas verir. «İldırım Bəyazid» romanında Türkiyənin Sivas, Bursa kimi ərazilərində İldırım Bəyazidlə bağlı hadisələrin təsviri İ.Hüseynovun «Məhşər» əsərində baş verən hadisələrlə az kəsişir. Yazıçı əvvəlki romanlarında bədii təxəyyülün məhsulu olan Əyyar, Molla Qəmər, Nazar obrazlarının da gələcək taleyini burada izləyir. Əsərdə Teymurləngin adı bəzi fəsillərdə epizodik olaraq keçsə də, «Qarabağ» fəsli bütünlüklə onun burada məskunlaşmasından və fəaliyyətindən bəhs edir. İlk romanda yazıçı Teymurləngin Bəyazidlə bağlı fikirlərinə yer vermir. Yalnız ikinci romanın («Yürüş tonqalları») sonunda İldırım Bəyazidin adı çəkilir.

S.Borodin epopeyanın dördüncü kitabının yazılmasını da qərarlaşdırmış, «Ağ at» adlı kitabdan bir neçə fəsil yazsa da, tamamlaya bilməmişdir. Ancaq «Çingiz xan», «Cahangir», «Saray Mülk xanım», «Şah Məlik» «Əyyar» və s. fəsil adlarından görünür ki, yazıçı üslubuna sadiq qalaraq, əvvəlki kitablarda baş verən hadisələri və obrazları inkişaf etdirmək yolunu tutmuşdur.

Görkəmli Azərbaycan yazıçısı İsa Hüseynov (1928-2014) Sergey Borodindən (1902-1974) fərqli bir zaman və məkanda dünyaya gəlməsinə və milli ədəbi mühitdə yazıb yaratmasına baxmayaraq, ona ümumittifaq ədəbi prosesi ilə yaxın olmuşdur. Yazıçının M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alması onun ümumittifaq ədəbi mühitinə inteqrasiyasını təmin edir. Yazıçılar arasında iyirmi altı illik yaş fərqi həm də eyni ədəbi mühitdə yaranan bədii düşüncənin yeni mərhələsi anlamına gəlir, çünki bu zaman siyasi hadisələrin yumşalmasından qaynaqlanaraq ədəbiyyat sürətlə dəyişir, mövzu və problematika cəhətdən deyil, ideya, hadisələri təsvir və yanaşma etibarilə də müxtəlifləşir və zənginləşirdi. «Məhşər»ə qədər İ.Hüseynovun keçdiyi yol Azərbaycan bədii nəsrinin ən yaxşı səhifələrini təşkil edir. O, yaradıcılığında mənsub olduğu nəslin həyatını, taleyini təsvir etməyə, müharibə dövrünün çətinliklərini göstərməyə daha çox meyl etmişdir. Yaradıcılığa başladığı 40-cı illərin sonlarında tarixi roman

janrına mövcud ideologiyanın təsirini nəzərə alsaq, gənc yazıçının müasir həyat hadisələrinə müraciət etməsini tamamilə məqsədəuyğun hesab etmək olar.

İsa Hüseynov «Məhşər» romanına qədər müasir həyat hadisələrindən yazmasına baxmayaraq, mövcud cəmiyyət hadisələrini, buradakı münaqişələri təsvir etməklə, həm də cəmiyyətin tarixini yazmağa cəhd etmişdir. Yəni onun çoxsaylı əsərlərində Azərbaycan cəmiyyətinin, onun ictimai-siyasi həyatının müəyyən bir dövrü reallıqla əks etdirilmişdir. Bunlar çağdaş həyatın gerçəklikləri olmaqla yanaşı, həm də insan psixologiyasının özünəməxsusluğunu göstərir. Yazıçı müasir həyat hadisələrindən bəhs edən əsərləri ilə bu gün tarixə çevrilən cəmiyyətin həyatını yazmışdır. Ədibin əsərlərindəki xalq ruhu, cəmiyyət hadisələrinə humanist tarixi baxış onu yeni axtarışlara sövq edir. Tarixi idrak, tarixə, keçmişə münasibət yazıçını yeni bir əski hadisəyə müraciət etməyə məcbur edir.

Tarix bütün dövrlərdə bədii düşüncənin, idrakın müraciət etdiyi əsas mənbələrdən biri olduğu kimi XX əsr Azərbaycan və rus nəsrinin də qida mənbələrindən olmuşdur. Lakin tarixi yalnız faktların, hadisələrin məcmusu olaraq qəbul etmək tarixə düzgün yanaşmanı əks etdirmir. Hər zaman tarixi hadisələrə baxış və tarixə yazıçı münasibəti aktual olduğundan, ona münasibət də birmənalı olmamışdır. Tarixdən yazılan bədii əsərlər istər oxucu, istərsə də tənqidçi və ədəbiyyatşünaslar tərəfindən eyni cür qarşılanmır. Xüsusilə tarixçi ilə yazıçı arasında zaman-zaman yaranan ixtilaflar tarixi gerçəkliklə bədii həqiqətin üst-üstə düşməməsindən irəli gəlir. Məsələn, bir neçə tarixi roman müəllifi olan A.Çakovskinin fikrincə, «yazıçı faktları seçərkən tarixi qanunauyğunluq anlayışından çıxış etməlidir, ikincisi, sənətkar fantaziyası ilə yaradılmış hər bir şey tarixi həqiqətin əsas mahiyyətini təhrif etməməlidir» (Tərcümə bizimdir-R.N.)[12].

Əgər tarixçi öz əsərində ayrı-ayrı faktların köməyi ilə müəyyən elmi nəticələrə gəlirsə, yazıçının çıxardığı nəticələr bədii təxəyyülün məhsulu olur. Bu nəticələr yazıçının hadisələri bədii şəkildə əks etdirməsindən, fərdiləşdirilmiş insan obrazlarının bir-birinə qarşı münasibətindən doğur. Başqa sözlə, tarixçi dövrün ümumi mənzərəsini, yazıçı isə insanların və hadisələrin təsviri ilə dövrün psixologiyasını gələcək nəsillərə çatdırır.

[12] Чаковский А.В. Проблемы художественного изображения революции в литературе. М.:Сов.писатель. 1978. с. 343

Birinci fəslin **«Tarixi dövrün və tarixi hadisələrin bədii əksi»** adlı üçüncü yarımfəslində qeyd olunur ki, hər iki romanda dövrün, zamanın və məkanın təsvir üsulunda müəyyən fərqlər olduğu kimi, hadisələrin baş verdiyi coğrafiyada da fərqlər az deyil. S.Borodinin romanında hadisələrin coğrafiyası daha epoxal olduğu halda, İ.Hüseynovun əsərində hadisələrin cərəyan etdiyi coğrafiya bir qədər konkretdir. Birinci müəllifdə hadisələrin epik, ikincidə isə psixoloji-analitik təhlili başlıca yer tutur. Dövrün, hadisələrin və şəxsiyyətlərin bədii əksi baxımından da hər iki roman arasında yaxınlıq, uyğunluq olduğu kimi, fərqli məqamlar da mövcuddur. S.Borodinin romanlarının hər biri iyirmi fəsildən ibarətdir və bu fəsillərin hər birində hadisələr fərqli məkan və zamanda baş verir. «Bağça», «Bazar», «Sövdəgərlər», «Karvan», «Göy saray», «Şahzadələr», «Ustalar», «Sultaniyyə», «Ordugah», «Qış», «Qarabağ», «Şirvan» və s. fəsillərdə hadisələrin xronoloji ardıcıllığı və epik təsvirlər üstünlük təşkil edir. «Məhşər»də isə müəllif xronoloji ardıcıllığı gözləmədən, «İnkar», «Etiqad», «Qorxu», «Tənhalıq», «İxtilaf», «Vəhdət», «Təslim» və «Qətl» fəsillərindən istifadə etmişdir.

İ.Hüseynov hadisələrin məkanları üzərində deyil, mahiyyəti və psixoloji məqamlar üzərində dayanmışdır. Əgər S.Borodin romanın baş qəhrəmanı ilə bərabər bir salnaməçi kimi Hindistan, Əfqanıstan, Səmərqənd, İran, Azərbaycan və başqa ölkələri gəzirsə, «Məhşər»də təhkiyəçi hadisələri bir nöqtədən izah etməli olur. Nəticə etibarı ilə, təhkiyəçinin analitik təhlillərinə bəzi informativ məlumatlar daxil olsa da, əsasən, hadisələr Xeyir və Şərin mənəvi konflikti üzərində qurulur və axıracan da bu istiqamətdə davam edir. «Səmərqəndin ulduzları»nda təbiət təsvirlərinə geniş yer verilirsə, «Məhşər»də ictimai hadisələrin analitik təhlillərinə üstünlük verilir. Hər iki romanda dövrün ictimai mənzərəsini əks etdirən kifayət qədər təhlillər var ki, onların üzərində ayrı-ayrılıqda dayanmaq lazım gəlir.

S.Borodinin «Səmərqəndin ulduzları» romanında tarixi material və faktlar o qədər də çox olmadığından, trilogiyada müəllifin dövrə bələdliyi, yaxud tarixi hadisələrdən yararlanma imkanları zəif təsir bağışlayır. Azərbaycanla bağlı təsvirlərdə Şirvanşah İbrahimlə Teymurun münasibətlərindəki çalarlara da az yer verilməsi romanın əhəmiyyətini bir qədər də azaltmış olur. «Qarabağ», «Şirvan» adlı iki fəsildə belə Azərbaycanda gedən ictimai-siyasi proseslər deyil, kiçik istisnaları nəzərə almasaq, müəyyən məişət hadisələri qələmə alınır. Bu istisnalardan biri Şirvanda Teymurləngin nəvəsi Xəlil Sultanın Nəimi və Nəsiminin

məclisində iştirak etmələri və qəzəllərini dinləməsidir. Əslində isə burada gedən ictimai-siyasi proseslərə nəzər salmaq, hadisələri bütün təfərrüatı ilə təsvir etmək fikrimizcə, daha böyük marağa səbəb olardı. Yalnız «Sazandalar» fəslində Teymurlənglə Şirvanşah İbrahimin münasibətləri açıqlanır ki, bu da tarixi reallığı tamlıqla üzə çıxara bilmir.

İ.Hüseynovun «Məhşər» romanında isə dövrün ictimai-siyasi mühiti tarixi, psixoloji aspektdə bədii tədqiqat obyektinə çevrilir. «Məhşər»in bütün fəsilləri S.Borodinin romanında olduğu kimi, hadisələrin axını və coğrafiyası ilə adlandırılmır, əsərin süjet xəttində başlıca yer tutan analitik təhlillərlə aparılır. Romanın əsas süjet xəttində hürufiliyin mərkəzi olan Şamaxı mühiti dursa da, yazıçı hadisələri çarpazlaşan və qovuşan sosial-siyasi tendensiyalar vasitəsilə qələmə alır. Yazıçı baş verən hadisələri tarixi, ictimai-siyasi icmallar şəklində verməklə qovuşuq bir üslub yaratmış, hadisələri hürufi ideologiyası ilə vəhdətdə təsvir etmişdir. Buna görə də, «Məhşər» romanında «Səmərqəndin ulduzları»ndan fərqli olaraq, hadisələri geniş planda deyil, həmin dövrdə mövcud olan iki qüvvə – Teymurləng və hürufizmin üz-üzə gəlməsinin və ikincinin mənəvi qələbəsinin şərtləndirilməsinin bədii təcəssümü olaraq təsvir edir.

Roman XIX-cu yüzilliyin ictimai-siyasi hadisələrinin panoram icmalı ilə başlayır; yer üzünün bir qismində Teymurləng, o biri qismində Tamerlan hökmdarlıq edir. Tamerlan Səmərqənd əmirinin ilk yürüşlərini başa vurub İranı, Azərbaycanı, cənub torpaqlarını, Ərməni və Qaxeti fəth etmiş, Kür çayı boyunca Azərbaycanın şimalına gəlib, burada gözlənilmədən Şirvanşah İbrahimlə müqavilə bağlayıb Səmərqəndə qayıtmış, səltənətinin düşməni – Qızıl Orda hakimi Toxtamış xanla növbəti vuruşmaya hazırlanmış və İldırım Bəyazidə bac verən qalalara hücum çəkmişdir.

Beləliklə, hər iki yazıçının əsərində Teymur dövrünün tarixi hadisələrinin və şəxsiyyətlərinin təsvirlərində tarixi reallığa uyğunluq müşahidə olunur. Bu baxımdan həm S.Borodinin, həm İ.Hüseynovun yaradıcılığında keçmişə münasibətdə eyni prinsiplərə əməl olunmasını qeyd etmək olar.

Dissertasiyada S.Borodin və İ.Hüseynovun romanlarında tarixi şəxsiyyətlərin tipologiyası **«S.Borodinin «Səmərqəndin ulduzları» və İ.Hüseynovun «Məhşər» romanlarında tarixi şəxsiyyətin bədii təcəssümünün tipoloji prinsipləri»** adlı ikinci fəslində öz əksini tapır. Fəslin «**Topal Teymur tarixi və bədii obraz kimi**» adlı birinci yarımfəslində qeyd edilir ki, S.Borodinin «Səmərqəndin ulduzları» və

İ.Hüseynovun «Məhşər» romanlarında tarixi obrazların yaradılmasında müəyyən prinsiplər gözlənilmişdir. Əgər rus yazıçısı daha çox Teymur obrazı üzərində dayanmışsa, Azərbaycan yazıçısının əsas diqqəti Nəsimi və hürufilik üzərinə yönəltmişdir. Bununla belə, tipoloji cəhətdən bu əsərləri birləşdirən əsas məqamlardan biri Teymur obrazıdır. Çünki Teymur tarixi şəxsiyyət olaraq dünyada daha çox tanındığı üçün, bir çox bədii əsərlərin də baş qəhramanı olmuşdur. Şübhəsiz, bu əsərlərin hər birində Teymur xarakterinin əsas cəhəti açıldığı kimi, burada tarixi reallıqla uyğun olan və olmayan məlumatlar da yer almışdır.

Ötən əsrin 40-50-ci illərində Teymur haqqında ədəbi, elmi mühitdə söz-söhbətlərin getməsi bu tarixi şəxsiyyətə marağı artırmışdır. Xüsusilə, İkinci dünya müharibəsi ərəfəsi və ondan sonrakı dövr sərkərdənin, yaxud şəxsiyyətin tarixdə rolu məsələsi gündəmə gələrkən Teymurun tarixi şəxsiyyəti də diqqət mərkəzinə düşür. 40-cı illərdə Teymurun məqbərəsinə ekspedisiyaların təşkil edilməsi ilə bağlı müəyyən məlumatlar da var. A.Y.Yakubovski tədqiqatlarında yazır ki, Teymurun yaşadığı dövrə müraciət edilərək onun həyatı və şəxsiyyəti haqqında yeni məlumatların verilməsi bu tarixi şəxsiyyətə marağı bir daha artırmış oldu. Onun «Səmərqənd Teymur və teymurilərin dövründə» (Səmərqənd. Teymur və teymurilər haqqında) (1933) və «Timur» (1946) məqalələrində tarixi həqiqətlərin üzə çıxarılması istiqamətində müəyyən addımlar atılmışdı[13].

Yazıçı S.Borodin Teymur obrazını yaradarkən tarixi faktlardan, yaxud Teymur haqqında yayılan əfsanə və rəvayətlərdən də istifadə etmişdir. Əlbəttə, yazıçı tarixə istinad edərkən faktlara yaradıcı şəkildə yanaşır, müasir oxucunun tarixə marağı prizmasından çıxış edir. Müəllif Teymurun tarixi şəxsiyyətini təsvir edərkən xronoloji ardıcıllıqla deyil, müxtəlif situasiyalarda retrospektiv şəkildə münasibət bildirməyi daha üstün tutur. Bəzən bu münasibət yazıçı təhkiyəsində yer tutursa, bəzən də müxtəlif obrazların dilində, düşüncəsində təqdim edilir.

S.Borodin epopeya boyu bəzən ayrı-ayrı cizgilərlə, bəzən hadisələrin ümumi axarında Teymurun xarakterini yaratmağa çalışır. Epopeyanın «Topal Teymur» adlanan birinci kitabının «Bağça» adlı birinci fəslində yazıçı «qoca Teymur»u zəfərlə bitmiş yürüşdən evə qayıtmasını təsvir edir. Artıq Teymurun qocalıq dövrüdür. Yazıçı burada tarixə eksurs edərək Teymurun zəfər yürüşlərini xatırlayır. Son zəfəri Hindistan

---

[13] Якубовский А.Ю. Самарканд при Тимуре и тимуридах. Л.1933.

üzərində dayanan yazıçı Teymurun Hindistanı talan etməsi, yüz min sənətkar, rəssam, memar və müxtəlif peşə sahiblərini ölkəsinə gətirməsini bildirdikdən sonra Teymurun şəxsən Hindistan əsirlərinə baxmağa gəlməsi səhnəsi təsvir edilir.

S.Borodin Teymur obrazına bir də üçüncü - «Sövdəgərlər» fəslində yeni cizgilər əlavə edir. Tarixi mənbələr Teymurun hakimiyyəti zamanında sənətkara, sövdəgərlərə dəyər verdiyi, müharibələrə baxmayaraq, ticarətin davam etdiyi ilə bağlı məlumatlar bu əsərdə də bədii təsdiqini tapır. S.Borodin Teymurun fiziki qüsurunu da roman boyu yeri gəldikcə oxucunun diqqətinə çatdırmağı unutmur: «O, yenə də axsaya-axsaya gəzişirdi. Məhəmməd Sultan isə bundan bir qədər aralı gəlirdi, addımlarını babasının axsaq addımları ilə bir atmağa çalışırdı»[14].

Tarixi şəxsiyyətlərin bədii obrazının yaradılması İsa Hüseynovun «Məhşər» romanında da başlıca yer tutur. Bu tarixi şəxsiyyətlər arasında Teymurləng, Miranşah, Nəimi, Nəsimi obrazlarının hər biri tarixi reallığa uyğun olaraq yaradılmışdır. Doğrudur, «Məhşər»də «Səmərqəndin ulduzları» romanında olduğu kimi, Teymur mərkəzi obraz deyil, Nəsimi ilə paralel şəkildə romanda özünə yer tutan xarakterlərdən biridir. Ancaq roman boyu iki şəxsiyyətin və onların malik olduqları ideologiyaların qarşılaşdırılması bu obrazın xarakterinin açılmasında kifayət qədər önəmli rol oynayır. Romanın əsas qəhrəmanının Nəsimi olmasına baxmayaraq, birinci fəsil fateh Teymurləngin dünyanı fəth etməsi informasiyası ilə başlayır. Yazıçı yer üzünün bir qismində Teymurləngin, o biri qismində isə Tamerlanın tarixdə olmuş yürüşləri ilə bağlı oxucuya məlumat verdikdən sonra hadisələri Azərbaycanın üzərinə gətirir. S.Borodindən fərqli olaraq, İ.Hüseynov Teymurləngin yürüşlərini, həyatını təsvir etməkdən (əlbəttə, bunlar da istisna olunmur) çox, onları təhlil edir, özünün bədii təhlil süzgəcindən keçirərək oxucuya müəllifin hazır qənaətlərini təqdim edir. Elə ilk fəsildən və ilk səhifədən oxucu Teymurun yeddi yüz minlik qoşun selinin hərəkətlərini izləyir, onun qarşısında duracaq bir qüvvənin olmadığını dərk edir. Dünyanın böyük bir hissəsini fəth etmiş bu sərkərdənin Toxtamış, İldırım Bəyazid kimi şöhrətli cahangirlərdən çəkinməyərək Bağdada qədər gedib çıxmasını reallıqla əks etdirir.

İ.Hüseynov salnaməçilərə əsaslanaraq, Teymur zülmünün

[14] Borodin S. Səmərqəndin ulduzları. Topal Teymur (birinci kitab). Bakı. Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatı. 1962. 534 s.

Naxçıvanda ərşə qalxmasını buradan Şamaxıya gələn qaçqınların dili ilə «daşatan mancanaqların Naxçıvanı necə dağıtdığını, Ziyaülmülk günbəzi altında, saman tüstüsü içində beş yüz nəfərin necə ilan kimi qıvrıla-qıvrıla öldüyünü» danışmaqlarını reallıqla təsvir edir. Başqa bir yerdə isə Teymurun Bağdad camaatının yarısını qala divarları arxasında xəndəklərə tökdürdüyünü, o biri yarısını isə öz ata-analarının, qardaş-bacılarının, oğul-uşaqlarının üstünü torpaqlayıb diri-diri basdırmağa məcbur etdiyini göstərir[15].

Teymurləng hakimiyyət qurub və qayda-qanun yaradarkən ailə üzvlərinə də güzəştə getmirdi. Miranşahın taleyinə laqeydliyi, onun Teymur hakimiyyətini Təbriz və Şamaxıda yaxşı təmsil edə bilməməsi, fağır müsəlmanları incitməsi, əyyaşlıq etməsi onu daim düşündürür. Ona Miranşahın Ərməndə tərsa qızının ətəyinə qızıl tökdüyünü, Şirvanda Teymur hakimiyyətini dəstəkləyən Şeyx Əzəmə ənam vermək əvəzinə qızını zorladığını, fağırlara, zəlillərə əl tutmaq əvəzinə, tərsalara ziyafət verdiyini də çatdırmışdılar. Elə buna görə də Teymurləng onu cəzalandırmaq qərarına gəlir.

İ.Hüseynov Əmir Teymuru əzazil, rəhmsiz biri kimi təsvir etməklə yanaşı, onu həm də haqq, ədalət tərəfdarı, dinin təəssübkeşi olaraq təsvir edir. Doğrudur, onun əzazilliyi, zülmü ərşə qalxır, lakin o, bunu öz xalqına qarşı etmir, ona tabe olmayanları cəzalandırmaq üçün edir. Onun qalalar fəth etməsi, torpaqları işğal etməsinin arxasında hakimiyyətini genişləndirmək, xalqının şöhrətini artırmaq məqsədi dururdu. Bir çox məqamlarda yazıçı Teymurun hərəkətlərinin qanuna əsaslandığını, özünün qoyduğu qaydalara əməl etdiyini göstərmək istəyir. Hətta doğma oğlu Miranşahı da cəzalandırması buradan irəli gəlirdi.

Dissertasiya işinin bu fəslinin **«Tarixi romanlarda obrazların tipoloji prinsipləri»** adlı ikinci yarımfəslində hər iki yazıçının əsərlərində tarixi paralellizm prinsipi araşdırılır. Hər iki əsər təxminən eyni zaman çərçivəsində baş verən hadisələri əks etdirdiyindən, istər-istəməz, tarixi dövrün, problemin və şəxsiyyətlərin də təsvirinə geniş yer verilir. Toxtamış, İldırım Bəyazid, Şirvanşah İbrahim, Miranşah, Xəlil Sultan, Uluqbəy, Nəimi, Nəsimi kimi şəxsiyyətlərin obrazları tarixi hadisələrin məcburi axarı ilə süjet xəttinə daxil olmuşdur. Bu tarixi şəxsiyyətlərin hər biri hər iki əsərdə bədii cəhətdən işlənmiş, onların obrazlarına yeni bədii çalarlar əlavə olunmuşdur. Bu cəhətdən Şirvanşah İbrahim və Miranşah

[15] Hüseynov İ. Məhşər. Bakı. Gənclik. 1982. s.58

obrazları Teymurləngdən sonra hər iki əsərin bir ortaq surətlərdəndir.

Romanlarda hadisələrin bir qisminin Şirvanda baş verməsi yazıçıların bu obraz üzərində geniş dayanmasına, Şirvanşah İbrahim-Miranşah münasibətlərinə aydınlıq gətirməsinə səbəb olmuşdur. Hər iki yazıçı həmin dövrdə bu regionda baş verən hadisələri reallıqla təsvir etmək, tarixi həqiqəti gözləmək, dövrün, mühitin koloritini göstərmək üçün ciddi axtarışlar apararaq müxtəlif mənbələrdə verilən məlumatları nəzərdən keçirərək saf-çürük etmişlər.

Hər iki romanda XIV yüzilin son illərində Teymurləngin Hindistanı, İranı, Azərbaycanın cənub torpaqlarını, Ərməni, Gürcüstanı fəth edərək Şirvanşah İbrahimlə müqavilə bağlaması və Şirvanda baş verən hadisələr təsvir edilir. «Məhşər» romanı Şirvanda baş verən hadisələrə nüfuz etmək baxımından diqqətəlayiqdir. Şirvanşah İbrahim Teymur işğalına qarşı hürufilərdən istifadə etmək məsələsinə laqeyd yanaşmır. O, indiki zamanda Teymur istilasına qarşı hürufiliyin son dərəcə ciddi bir qüvvə olduğunu dərk edir, hətta düşmənə qarşı bu qüvvədən istifadə etmək üçün onlara gizli şəkildə yardım etməyi də düşünür. Şirvanşah İbrahimin Nəsiminin simasında hürufilərlə əməkdaşlığı hətta elə bir dərəcəyə gəlib çıxır ki, hakimiyyəti üçün müəyyən təhlükə yaranır. Şirvanşah İbrahimin sevimli oğlu Gövhərşahın hürufiliyi qəbul edərək mürid kimi onlara xidmət etməsini Miranşah Şirvan hökmdarına qarşı ən tutarlı fakt olaraq istifadə etməyə çalışır.

İ.Hüseynov Şirvanşah İbrahimi ziddiyyətli və mürəkkəb xarakterə malik bir hökmdar kimi təsvir edir; onun başlıca amalı həm də öz hakimiyyətini qorumaqdır. Bunun üçün o, hər cür tədbirə əl ata bilər. Şeyx Əzəmlə münasibətlərində də o, bunu biruzə verir. Əmir Teymurun hürufiləri ondan tələb etməsi zamanı isə o, sadəcə əmri yerinə yetirən bir icraçı təsiri bağışlayır, ittifaq bağladığı Nəsimini «şair kimi yox», «gözlərində qığılcım qaynayan iblis» libasında görür. Yazıçı Şirvanşah İbrahimin hürufilərə tutduğu divanın miqyasını böyütmək üçün onu Miranşahla müqayisə edir.

S.Borodinin Şirvanşah obrazı İ.Hüseynovun yaratdığı Şirvanşah xarakterindən bir qədər fərqlənir; «Səmərqəndin ulduzları» epopeyasının «Yürüş tonqalları» hissəsində «Şirvan» adlı iki fəsildə Azərbaycanda baş verən hadisələrin təsviri fonunda Şirvanşah İbrahimin tarixi şəxsiyyət olaraq bütöv obrazının yaradıldığını söyləmək çətindir. Yazıçı Teymurun Dərbəndi və Şirvanı işğal etməsi nəticəsində Şirvanşah İbrahimin laxlayan taxtında qalmasını onun «sözəbaxan» olması ilə əlaqələndirir. Yazıçı bu

tarixi həqiqəti təsdiq etmək üçün Teymurun Şirvanşah İbrahimə Hindistanda öz qoçaqlığı ilə ad çıxaran yaxın adamı Kürday bəyi şaha göz qoymaq üçün burada saxlamasını təsadüfi göstərmir. Lakin Şirvanşah İbrahim öz ağlı və siyasəti ilə həm Miranşahdan, həm də Kürday bəydən üstün görünür. Teymurun gəlişini eşidən camaatın şəhərdən qaçaraq dağlara çəkilməsini Şirvanşah İbrahimin öz oyunu olmasını hiss edən Kürday bəy Şirvanşahla görüşündə bunu sübut edə bilmədiyindən çətin vəziyyətdə qalır.

Hər iki romanda bədii yük və tarixi gerçəklik baxımından özünün funksionallığı ilə seçilən obrazlardan biri Miranşahdır. Bu obrazın tarixi cizgiləri hər iki romanı bir-birinə yaxınlaşdıran əlamətlərdən biridir. Hər iki romanda Miranşah haqqında həm müəllif təhkiyəsində danışılır, həm də müxtəlif obrazların ona münasibəti təsvir edilir. İ.Hüseynovun «Məhşər» romanında Miranşah haqqında ilk olaraq «Qorxu» fəsilində danışılır; onun dəli olması xəbərinin əhali arasında yayıldığı göstərilir. Sonralar yazıçı firəng elindən-Kastiliyadan Əmir Teymurun hüzuruna gələn elçi vəliəhdin həqiqətən dəli olmasını təsdiq edəcəkdi. Hər iki müəllif əsərlərində Miranşahın həyatı ilə bağlı xalq arasında dolaşan ziddiyyətli fikirlərdən istifadə edir.

Nəimi və Nəsiminin tarixdə olan obrazlarının bədii şəkildə mükəmməl yaradılması İ.Hüseynovun «Məhşər» romanında ən yaxşı şəkildə həyata keçirildiyindən romanlar arasındakı paralelliyə bu əsərdən başlamaq daha doğru olardı. Azərbaycanlı oxucular üçün də yalnız klassik bir şair olaraq tanınan Nəsiminin obrazı bütün mahiyyəti və tarixi, bədii yükü ilə «Məhşər»də özünü göstərir. Nəimi obrazının da bu əsərdən sonra tanınması müəllifin yaratdığı obrazın ictimai yükü ilə bağlıdır.

İ.Hüseynov Nəimini milli mücadilədə tək təsvir etmir, onu Nəsimisiz təsəvvür etmək olmaz. Romanda Nəimi və Nəsimi cütlüyü tarixi reallığa uyğun olaraq təsvir edilmişdir.

S.Borodinin «Səmərqəndin ulduzları» romanında da Nəimi və Nəsimi obrazlarının təsviri müəyyən yer tutur. Doğrudur, «Məhşər»də olduğu qədər bu əsərdə obrazların həyatı, şəxsiyyəti və ictimai fəaliyyəti ilə bağlı geniş danışılmır. Bununla belə, Teymurləng dövrünün tarixi, ictimai hadisələrini təsvir edərkən Nəimi-Nəsimi cütlüyünü təsvir etməyin də qaçılmaz olduğunu təsəvvür etmək çətin deyil.

Tədqiqat işinin ikinci fəslinin **«Bədii portretlərin və portret-obrazların təsviri üsulu»** adlı üçüncü yarımfəslində bədii portret problemi mühüm yer tutur. Dövrün ruhunu, insanların duyğu və

düşüncələrini inandırıcı şəkildə canlandırmaq və buna oxucunu inandırmaq üçün bədii portret yaratmaq və təsvir üsullarından istifadə etmək bədii yaradıcılığın əsas şərtlərindən biri hesab olunur. Yazıçı müraciət etdiyi şəxsiyyətləri elə canlandırmalıdır ki, onların vasitəsilə mühitin, dövrün və zamanın özünün obrazı canlansın. Hər hansı bir portretdə yalnız bir subyektin, fərdin yox, həm də konkret bir tarixi mühitin, sosial, siyasi gerçəkliyin, zamanın və dövrün xarakteri canlanmalıdır. Buna isə bədii mənzərəni ustalıqla rəsm etməklə, təsvir obyektinin canlı portretini yaratmaqla nail olmaq mümkündür.

Portreti həm də bədiiləşmiş həqiqət hesab etmək olar. Portret ustalığı bədii düşüncənin vacib amilinə çevrildiyindən ədəbiyyatşünaslıqda da öz əksini tapmışdır. B.S.Baraxov, M.İ.Andronikov, B.Y.Qalanov, N.V.Nikolayev, M.S.Myasnikov və başqaları müxtəlif sənətkarların portret yaradıcılığı ilə bağlı, yaxud ayrı-ayrılıqda portret sənətkarlığından bəhs edən əsərlər yazmışlar. Bu tədqiqatların əksəriyyətində portret yaradıcılığından danışılarkən tarixi mövzulara və əsərlərə daha çox müraciət olunur.

Yazıçının hər hansı bir dövrün insanlarını, yaxud tipik mənzərəsini seçərək təsvir etməsi, onun portretini yaratması dövrün, cəmiyyətin mənzərəsini müəyyənləşdirir. Yəni ədəbi portretin təsvir imkanları tarixi əsərlərdə daha əlvan, daha geniş olur, beləliklə, onların funksionallığı artır. Bu zaman portretin reallığı da artır, həyatiliyi daha canlı olur, müəyyən struktura malik olan əsərin süjet xətti inkişaf etdirilən hadisə və obrazlarla təmin edilmiş olur.

Bədii portreti həm də hər hansı bir konkret həyat lövhəsi, yaxud predmet və obrazların kompleks birliyi kimi də başa düşmək olar. Bütün bunlar bədii portretin əsərdəki çoxcəhətliliyini təmin edir. Ədəbiyyatşünas İ.Vəliyev portreti «yazıçı təsvirlərinin, təhkiyə və sözlə ifadə sistemlərinin, süjet və konfliktin, ədəbi kompozisiyanın, daha geniş mənada əsərdəki obrazlar qrupunun, qarşılıqlı münasibətlərinin bədii nəticəsi»[16] hesab etməkdə tamamilə haqlıdır.

S.Borodinin «Səmərqəndin ulduzları», İ.Hüseynovun «Məhşər» romanlarında tarixi şəxsiyyətlərin bədii təcəssümünün tipoloji prinsiplərini araşdırarkən, bədii portretyaratma üsulları və obrazların (tarixi və bədii) təsvir prinsiplərinə nəzər yetirmək lazım gəlir. Məsələ burasındadır ki, eyni tarixi dövrü və tarixi şəxsiyyətləri təsvir etməsinə

[16] Vəliyev İ. Ədəbi portret və xarakter. Bakı.Yazıçı. 1981. s.13

baxmayaraq, hər iki əsərdə oxşar və fərqli məqamlar çoxdur. Bu, hər şeydən əvvəl, tarixi şəxsiyyətlərin obrazlarının və bədii obrazyaratma üsulunun fərqliliyindən və yazıçı üsulunun müxtəlifliyindən irəli gəlir. Əvvəlki yarımfəsillərdə Teymur, Şirvanşah İbrahim, Miranşah, Nəimi və Nəsimi obrazlarının tipoloji təhlilində bu fərqliliklərə müəyyən qədər aydınlıq gətirildi. S.Borodin və İ.Hüseynovun Teymuru tarixi gerçəkliyin və özlərinin yazıçı prizmasından keçirərək, onun fərqli obrazını yaratdıqları və hər ikisinin öz qəhrəmanlarına müxtəlif baxışdan yanaşdığı qənaətinə gəlindi. Əsərdəki digər obrazların (tarixi, yaxud bədii) təsvirində də hər iki yazıçı özünün təsvirçi hüququndan istifadə edərək, onların orijinallığını qoruyub saxlamışlar. Hər iki romanda tarixə aid zəngin materialların toplanması, dövrə, mühitə, tarixi şəxsiyyətlərə yazıçı münasibətinin formalaşması özünü göstərir. Ancaq tarixi şəxsiyyətlərin fəaliyyət və davranış müxtəlifliyi, xarakterdəki ziddiyyətlərin açılması, tarixi həqiqət və bədii təxəyyülün qarşılıqlı əlaqəsi, eləcə də xarakterlərin açılmasında, portretlərin yaradılmasında fərdi yazıçı ustalığı əsas yerlərdən birini tutur. S.Borodinin «Səmərqəndin ulduzları» epopeyasında Miranşah, Xəlil Sultan, Məhəmməd Sultan, Saray Mülk xanım, Şahrux, Mirzə İskəndər, Şirvanşah İbrahim, Toxtamış, Uluqbəy, İldırım Bəyazid, Qara Yusif kimi tarixi obrazlarla yanaşı, Molla Faiz, Molla Qəmər, Qıllı Gevork, Əyyar, Əlizadə, Nazar, Kürday bəy, Danqasa, Daqal, Kıyşik, Qiyasəddin, Toğay bəy, Martiros, Vasili kimi bədii təxəyyülün məhsulu olan obrazlar da vardır. İ.Hüseynovun da romanında Teymurləng, Miranşah, Uluqbəy, Nəimi, Nəsimi, Şirvanşah İbrahim kimi tarixi obrazlardan başqa Şeyx Əzəm, Gövhərşah, dərviş Həsən, Mövlana Cəlaləddin, Fatma, Hacı Firidun və başqa obrazlar yaradılmışdır. Hər iki romanda Orta əsr şərq hadisələri, mədəniyyəti, bazarı, etnoqrafiyası, bədii düşüncəsi və s. təsvir edilmişdir.

Teymurləngin portretinin yaradılmasında hər iki yazıçı «qorxu» «maska»sından istifadə etməklə onun əzazil obrazını yaratmağa nail olurlar. Əhməd Yəsilinin qəbri üzərində tikdirdiyi möhtəşəm saraydan sonra yeni bir saray inşa etmək fikrinə düşən Teymurun bu arzusunu yazıçı «dünyanı heyrətləndirmək» istəyi ilə yanaşı, həm də «qorxu sindromu»nun da reallaşa bilməsi faktı ilə əlaqələndirir.

Bu mənada İ.Hüseynovun «Məşhər» romanını portret-roman da adlandırmaq mümkündür. Portret İ.Hüseynovun bu romanında böyük bir funksionallığa malikdir, ekspressiv və emosional mahiyyət daşıyır. «Məhşər» romanında obrazlar fəaliyyətdə göstərilir, quru və

sxematiklikdən uzaq olub bütövlükdə dövrün, zamanın ruhunu canlandırır və mahiyyətini üzə çıxartmış olur. Aydındır ki, portretyaratmada yazıçı müşahidəsi əsas rol oynayır. Tarixin hər hansı bir dövrünü təsvir edərkən yazıçı bu müşahidəni aparmaqdan məhrumdur; yalnız memuarlar, tarixi və bədii əsərlərdən öyrənmək mümkündür. Ona görə də İ.Hüseynovun müşahidələri yerindədir, təsvir etdiyi xarakterlə dövrün, zamanın və ictimai mühitin obrazını yaradır. Bu xüsusiyyət əsərin bütün yerlərində özünü göstərir; istər ayrı-ayrı obrazların təsvirində, istərsə də konkret tarixi dövrün və mühitin xarakterinin təsvirində başlıca rol oynayır. Lakin burada «Səmərqəndin ulduzları» romanında olduğu kimi, ənənəvi portretyaratma üsullarından istifadə olunmur. İ.Hüseynov həm dövrün, həm də ayrı-ayrı obraz və xarakterlərin portretini yaradarkən fərdi yazıçı fərdiyyətinin ustalığından məharətlə istifadə edir. Əmir Teymurun, Nəiminin, Nəsiminin, Şirvanşah İbrahimin obrazlarının yaradılması zamanı daxili aləmin və psixoloji vəziyyətlərin təsvirinə daha çox üstünlük verir.

Beləliklə, hər iki yazıçı ədəbi qəhrəmanların portret-obrazları vasitəsilə dövrün, həyatın, hadisənin xarakterik sahələrinə müdaxilə edərək obrazları müəyyən bir ideya ətrafında birləşdirir. Bu əsərlərin süjet xəttində mühüm yer tutan təsvirlər hadisənin daxili-psixoloji məzmununu ifadə edir.

Dissertasiyanın «**Nəticə»** hissəsində ayrı-ayrı fəsil və yarımfəsillərdə qoyulan problemlərə yekun vurulur. Nəticə olaraq qeyd edilir ki, tarixi mövzuya və tarixi şəxsiyyətlərə maraq XX-ci əsr Azərbaycan və rus romanlarında artmaqla yanaşı, davamlı və sistemli bir hal almışdır. S.Borodinin «Səmərqəndin ulduzları» və İ.Hüseynovun «Məhşər» əsərlərində eyni tarixi hadisələrin və bir-birinə yaxın şəxsiyyətlərin əks etdirilməsi onların tipoloji uyğunluqlarını ortaya çıxarır.

Tarixi dövrün bədii mənzərəsinin yaradılmasında yazıçı münasibətinin müxtəlifliyi daha qabarıq üzə çıxır; belə ki, dövrün tarixi mənzərəsinin bədii inikası «Səmərqəndin ulduzları» ilə «Məhşər»də fərqli şəkildə göstərilir.

**Dissertasiyanın əsas məzmunu dərc olunmuş aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. Faciəlilik kateqoriyası və İsa Hüseynov dünyası // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər

Əliyevin 89 illik yubileyinə həsr olunmuş III Beynəlxalq konfransın materialları. Bakı: BSU. 2012. 525-527.

2. S.Borodinin "Səmərqəndin ulduzları" romanında hökmdar obrazının səciyyəsi // Azərbaycan Dillər Universitetinin "Elmi xəbərləri", Bakı, 2013, №2, s.263-268.

3. İsa Hüseynovun "Məhşər" romanında hökmdar obrazının təsviri // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq konfransın materialları. Bakı: BSU. 2013. s.453-455.

4. İsa Muğannanın "Məhşər" romanında bədii portret yaratma üsulları // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr edilmiş gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransı. Bakı: Qafqaz Universiteti. 2013. s.452.

5. Azərbaycan tarixi romanının inkişaf problemləri // Tağıyev oxuları. Elmi məqalələr məcmuəsi. Bakı: Mütərcim. 2014. №12. s.80-85.

6. Bədii portretdə zamanın həqiqətləri // Azərbaycan. Ədəbi-bədii jurnal, Bakı. 2014. №8, s.177-182.

7. S.Borodin və İ.Hüseynov yaradıcılığında Topal Teymur tarixi və bədii obraz kimi // Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu. Ədəbi əlaqələr. VIII toplusu. Bakı. 2014. s.133-139.

8. Типологические принципы образов в исторических романах С.Бородина и И.Гусейнова // Наука и бизнес: Пути развития. Москва. 2015, с.31-35.

9. Авторский подход к истории в творчестве С.Бородина и И.Гусейнова // Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu. Ədəbi əlaqələr. IX toplusu. 2015. s.143-147.

10. İsa Hüseynovun "Məhşər" və Sergey Borodinin "Səmərqəndin ulduzları" romanlarında Şirvan mühitinin təsviri // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransı. II cild. Bakı. 2015, s.71-73.

11. XX yüzil rus tarixi romanının təşəkkülü problemləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı 2016. №2. s.195-199.

12. Художественное отражение исторической эпохи и личностей в романах С.Бородина и И.Гусейнова // Гуманитарные науки и образование (научно-методический журнал). Мордовский Государственный Педагогический Институт им.М.Е.Евсеева. Саранск. 2016. №4.

13.Sergey Borodin və İsa Hüseynovun yaradıcılığında hürufiliyin təsviri // Azərbaycan Dillər Universiteti. “Dil və ədəbiyyat” jurnalı. Bakı. 2016. №4.

**Наргиз Таджеддин гызы Рагимова**

# Типология образов в исторических романах Сергея Бородина и Исы Гусейнова

## РЕЗЮМЕ

Объектом данного исследования являются исторические романы С.Бородина «Звезды над Самаркандом» и И.Гусейнова «Судный день». В то же время в объект исследования входят проблемы и пути развития жанра исторического романа в советской литературе. Предметом исследования является сравнение и связь исторических героев и художественных образов Амира Тимура, Наими, Насими, Мираншаха, Ширваншаха, кроме того, принципы изображения социально-исторического времени создания романов.

В первой главе диссертации «Художественное отражение исторических личностей и исторической эпохи в романах С.Бородина «Звезды над Самаркандом» и И.Гусейнова «Судный день»» прослеживаются основные истоки исторического романа, как в русской, так и в азербайджанской литературе.

В первом разделе главы, которая называется «Формирование и типология исторического романа в русской и азербайджанской литературе» тщательно изучены пути развития жанра романа, отмечено схожесть и различие тем и проблематики, также в подходе к историческим событиям и к методам изображения.

Вторая глава диссертации называется «Типологические принципы художественного изображения исторической личности в романах С.Бородина «Звезды над Самаркандом» и И.Гусейнова «Судный день»» и состоит из трех параграфов. Здесь рассматривается типология образов Амира Тимура, Тохтамыша, Илдырыма Баязида, Ширваншаха Ибрагима, Мираншаха, Халил Султана, Улугбея, Наими, Насими.

Во втором разделе этой главы диссертации, которая называется «Типологические принципы образов исторических романов» дается сопоставительный анализ текста исследуемых произведений.

В заключительном разделе второй главы «Методы изображения художественных портретов и портретов-образов» постарался опреде-

лить разницу между изображением художественного портрета и портрета-образа.

В «Заключении» подведены итоги исследования, обобщаются основные положения диссертации и намечаются перспективы дальнейших изысканий по теме.

**Nargiz Tadjeddin Rahimova**

## Typology of images in historical novels of Sergei Borodin and Isa Huseynov

## SUMMARY

The object of dissertation investigation are historical novels of S.Borodin "Stars above Samarkand" and I.Huseynov "Judgment-Day". At the same time, the object of dissertation investigation includes the problems and ways of development of the genre of the historical novel in the Soviet literature. The subject of the dissertation investigation is to compare and communicate the historical characters and artistic images of Amir Teymur, Naimi, Nasimi, Miranshah, Shirvanshah, in addition, principles of presentation of socio-historical time of the creation of novels.

In the first chapter, titled "The artistic reflection of historical figures and historical era in novels of S.Borodin "Stars above Samarkand" and I.Huseynov "Judgment-Day", the main sources of the historical novel are traced both in Russian and in Azerbaijan literature.

In the first paragraph of chapter, called "Formation and typology of the historical novel in the Russian and Azerbaijani literature", the development of the novel genre is carefully studied; the similarities and differences of the themes and problems in the approach to historical events and image techniques are also noted.

The second chapter of dissertation investigation is entitled "Typological principles of artistic representation of the historical individual in the novels of S.Borodin "Stars above Samarkand" and I.Huseynov "Judgment-Day" and consists of three paragraphs. The typology of images of Amir Timur, Tokhtamysh, Ildyrym Bayezid, Shirvanshah Ibrahim, Miranshah, Khalil Sultan, Ulugbey, Naimi, Nasimi Here is considered in the chapter.

In the second paragraph of this chapter, called "Typological principles of historical novels images", is given a comparative analysis of the investigated novels.

The final paragraph of the second chapter is entitled "Methods of image artistic portraits and portrait-images". This chapter is devoted to the difference between the image of artistic portraits and portrait-image.

In “Conclusion” all points of dissertation are generalized, the perspectives of future investigations, connected with this theme are defined.

Çapa imzalanıb: 20.05.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

БАКИНСКИЙ СЛАВЯНСКИЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

НАРГИЗ ТАДЖЕДДИН гызы РАГИМОВА

# ТИПОЛОГИЯ ОБРАЗОВ В ИСТОРИЧЕСКИХ РОМАНАХ СЕРГЕЯ БОРОДИНА И ИСЫ ГУСЕЙНОВА

5718. 01 – Мировая литература (Русская литература)
5716. 01 – Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по филологическим наукам**

**Баку – 2016**